Salam.

Mənim adım Səyyaddır. 20 yaşım var. Sənə bu məktubu böyük ümidlərlə yazıram. Çünki bilirəm ki sən də sülh tərəfdarısan. Səni tanımıram. Amma bilirəm ki, sən mənim məktubumu oxuyacaqsansa, deməli sən də sülh istəyirsən. Səninlə səmimi olmaq istəyirəm. Bizim cəmiyyətdə erməni deyəndə düşmən yada düşür. Əminəm ki, bu sizdə də belədir. Amma mən belə düşünmürəm. Çünki bizim neçə illər müharibə şəraitində yaşamağımız bizə ancaq ziyan vurub. Məndə sənə qarşı nifrət hissi belə yoxdur. Çünki bizim müharibə vəziyyətində olmağımız nə mənim günahımdır, nə də sənin. Düşünürəm ki, Dağlıq Qarabağın və ətraf rayonların işğalı, bizim minlərlə əhalimizin öldürülməsi, bir milyondan artıq əhalinin öz torpaqlarına dönə bilməməsi sənin günahın deyil. Bu münaqişənin hələ də davam etməsi mənim üçün çox üzücü haldır. Çünki bu hal hər iki tərəfə ancaq ziyan vurur. Bizim əsgər cəbhədə öldükdə biz çox qəmli olduğumuz kimi, əminəm siz də əsgərinizin ölümünə bizim qədər məyus olursuz. Axı orda ölən əsgərlər hansısa ananın balası, hansısa uşağın atasıdır. Axı bizim sülh içində yaşaya bildiyimiz halda müharibə vəziyyətində yaşamağımız məntiqsizdir. Axı bu münaqişə hər iki xalqa, hər iki dövlətə ancaq zərər gətirir. Bu münaqişə hər iki dövlətin həm iqtisadi, həm də sosial olaraq geri qalmasına səbəb olur. Məncə, sən məni gözəl başa düşürsən.

Bizim regionda sülhün olması hər iki tərəfin yüksək inkişafina səbəb olacaq.

Sülhün bərqərar olması diləyi ilə…

Sağlıqla qal